## II Fəsil. İmtahana hazırlıq mərhələsi

**Maddə 6. İmtahan tapşırıqlarının yazılması və yoxlanılması**

6.1. Tələbələr imtahan tapşırıqlarının cavablarını yalnız göy rəngli diyircəkli qələmlə yazır, müəllimlər isə imtahan işlərini qırmızı rəngli diyircəkli qələmlə yoxlayır.

**Maddə 7. İmtahanın davametmə müddəti**

İmtahanın davametmə müddəti, bir qayda olaraq, 2 saat 15 dəqiqədir. Şifahi şəkildə təşkil edilən imtahahlarda fənnin xüsusiyyətindən asılı olaraq müəllimin təklifi ilə bu müddət artırıla bilər.

## III Fəsil. İmtahan prosesi

**Maddə 9. Ümumi tələblər**

9.1. İmtahan tələbənin fənn üzrə bilik və bacarıqlarını yoxlamaq məqsədilə keçirilir. Məqsədə uyğun olaraq, imtahan zamanı tələbə heç bir əlavə vasitələrdən (telefon, qulaqcıq, kiçildilmiş kağız vasitələr və s.) istifadə etmir.

9.2. Hər bir tələbə imtahan qaydalarına dəqiq riayət edilməsinin vacibliyini dərk edir, qadağan olunmuş hərəkətlər etmir və ya buna cəhd göstərmir.

9.3. Dekanlıq tərəfindən bütün tələbələr "İmtahan qaydaları" ilə əvvəlcədən tanış edilir.

9.4. Qaydaların bilinməməsi tələbəni qaydaların pozulmasından irəli gələn cəzalardan azad etmir.

9.5. İmtahan qaydalarını pozan tələbə imtahan zalından xaric edilir və onun yazı işi ləğv edilir.

**Maddə 10. İmtahanın tarixi, saatı və yeri**

10.1. Təsdiqlənmiş imtahan cədvəli (fors-major hallar istisna edilməklə) heç kim tərəfindən dəyişdirilə bilmir.

10.2. Bir qayda olaraq, tələbənin imtahan cədvəlində bir gündə ancaq bir fəndən imtahan verilməsi nəzərdə tutulur. İmtahanların toqquşması hallarına yol verilmir.

10.3. İmtahanın keçirilməsi qeyri-mümkün olduqda rəhbərlik imtahan cədvəlini dəyişdirə bilər. Bu halda imtahan elan olunmuş vaxtdan əvvələ təyin edilə bilməz.

**Maddə 16. İmtahanın gedişi**

16.1. Tələbələrin imtahan verilməsi ilə bilavasitə əlaqəsi olmayan şəxsi əşyaları, o cümlədən kitab, şparqalka xarakterli qeydlər, müxtəlif yazılı vasitələr, lüğət, elektron



Scanned with ACE Scanner

tərcüməçi, proqramlaşdırılan kalkulyator, kompyuter, mobil telefon və digər elektron cihazlarını imtahan otaqlarına gətirməsi qadağandır.

16.2. İmtahan başlamamış tələbəyə şəxsi əşyaların saxlanılması üçün yer göstərilir. Tələbə şəxsi əşyaların saxlanılmasına dair nəzarətçinin göstərişlərini yerinə yetirməlidir, əks təqdirdə, o, imtahandan xaric olunur. Ehtiyac yarandığı təqdirdə nəzarətçi tələbənin imtahan otağına gətirdiyi əşyalar, o cümlədən üst paltarları üzərində baxış keçirə bilər.

16.3. Tələbənin imtahan otağına gətirdiyi əşyaların saxlanması üçün imtahan rəhbəri və nəzarətçilər məsuliyyət daşımır.

16.4. Tələbələr imtahana cədvəldə qeyd olunmuş vaxtdan 30 (otuz) dəqiqə əvvəl gəlməlidirlər. İmtahana gecikən tələbələr imtahan zalına buraxılmır. İmtahana gecikən tələbələr imtahanda iştirak etmək hüququnu itirirlər və qiymətləndirmə cədvəlində "gəlmədi" şəklində qeyd olunurlar.

16.5. Tələbələr imtahan başlanandan sonra 15 dəqiqə müddətində imtahan zalını tərk edə bilməzlər.

16.6. İmtahanda iştirak edən tələbələrin yerləşməsini nəzarətçi müəyyən edir. Lazım gəldikdə nəzarətçilər tələbənin oturduğu yeri dəyişdirə bilərlər.

16.7. İcazəsi olmayan materialları imtahana gətirən tələbə imtahan qaydalarını pozmuş sayılır və qaydalara uyğun olaraq imtahan işinin ləğv olunması ilə imtahandan xaric olunur.

16.8. İmtahan cavablarının qeydiyyatı nəzarətçi tərəfindən verilmiş möhürlü cavab kartında aparılır.

16.9. Ehtiyac olarsa, nəzarətçi tələbəyə əlavə vərəqlər verə bilər. Verilən əlavə vərəqlər nəzarətçi tərəfindən imtahan yoxlama aktında qeyd edilir və əsas cavab kartına tikilir.

16.10. Tələbəyə özü ilə hər hansı əlavə vərəq (qaralama) gətirməsinə icazə verilmir.

16.11. Tələbələr imtahan zalında sakitliyə riayət etməli, qapıları səliqəli açıb-örtməli, zalı sakit şəkildə tərk etməlidirlər.

16.12. İmtahanın sonuna 15 (on beş) dəqiqə qalmış nəzarətçi imtahanın sona yaxınlaşdığı barədə ilk xəbərdarlığı edir. Bundan başqa, son 5 (beş) və 1 (bir) dəqiqə qalanda da tələbələrə yenidən xəbərdarlıq edilir. İmtahanın sona çatması elan olunduqdan sonra yazıların davam etdirilməsi qadağandır. Yazının davamı və ya düzəlişlərin edilməsi imtahan qaydalarının pozuntusu hesab edilir. Bu halda nəzarətçi işi ləğv edə bilər.



Scanned with ACE Scanner

16.13. İmtahan başlandıqdan sonra tələbə imtahan otağını müvəqqəti tərk edə bilməz. İstisna hallarda (səhhəti ilə əlaqədar) imtahan rəhbərinin icazəsilə tələbə nəzarətçi ilə birgə çıxıb 5 (beş) dəqiqə ərzində geri qayıda bilər.

16.15. İmtahan işini təhvil verən tələbə imtahan otağını tərk etməlidir.

16.16. İmtahan qaydalarının pozuntusuna görə imtahan işi ləğv olunmuşsa, həmin imtahanın təkrar verilməsinə icazə verilmir.

16.17. Nəzarətçi uyğun maddələrdə qeyd olunanlardan əlavə, aşağıdakı hallarda da tələbəni imtahandan xaric etmək və imtahan işini ləğv etmək hüququna malikdir:

16.17.1. Başqa tələbənin əvəzinə və ya başqasının onun əvəzinə imtahan vermək cəhdləri (bu halda əlavə olaraq daha ağır cəza tədbirləri, o cümlədən tələbənin universitetdən xaric olunma cəzası tətbiq oluna bilər);

16.17.2. İmtahan suallarının bir qisminin və ya bütövlükdə hər hansı bir qeyri-qanuni yolla əldə edilməsi halları (bu halda əlavə olaraq daha ağır cəza tədbirləri, o cümlədən tələbənin universitetdən xaric olunma cəzası tətbiq oluna bilər);

16.17.3. Hər hansı bir əlavə vəsaitdən icazəsiz istifadə etmək və ya buna cəhd etmək;

16.17.4. İmtahanın keçirilməsinə maneçilik törətmək cəhdləri;

16.17.5. Başqasına məsləhət vermək və ya məsləhət almaq cəhdləri, imtahan tapşırığının məzmununun imtahan zamanı müzakirəsi, imtahan zalını tərk edənədək tələbələr arasında hər hansı bir formada ünsiyyətin olması;

16.17.6. İmtahan tapşırığının başqa tələbəyə göstərilməsi, verilməsi, imtahan zalından çıxarılması və ya bunlara cəhd edilməsi;

16.18. Nəzarətçi qaydalarda öz əksini tapmamış digər oxşar hallarda da tələbələrə qarşı müvafiq cəza tədbirləri tətbiq edə bilər.

## IV Fəsil. Münaqişə komissiyasının qaydaları

### Maddə 17. İmtahan nəticələrinə etiraz

17.1. İmtahan nəticəsinə görə tələbə şikayət ərizəsi verə bilər. İmtahanın nəticəsindən narazı olan tələbə nəticələr elan edildiyi gündən etibarən 5 (beş) iş günü ərzində dekanlığa şikayət ərizəsi ilə müraciət edir. Bu halda universitetdaxili əmrlə yaradılmış Münaqişə komissiyası çağırılır, imtahanın nəticəsi ləğv edilir, iş komissiya tərəfindən yenidən yoxlanılır və qiymətləndirilir.

17.2. Münaqişə komissiyasına müraciət etməyən tələbənin öz işinə baxmasına icazə verilmir.



Scanned with ACE Scanner